


AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Sentyabr 2019

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “NEFT VƏ QAZ SAHƏSİNDƏN ASILILIĞIN AZALDILMASI ƏSAS PRİORİTETLƏRİMİZDƏNDİR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 26 sentyabr tarixində
Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndə
heyəti ilə keçirilən görüşdəki nitqindən



“Neft və qaz sahəsindən asılılığın azaldılması əsas prioritetlərimizdəndir. Əlbəttə, bunu bir günün içində etmək mümkün deyil, ancaq şaxələndirmə və iqtisadiyyatın müasirləşdirilməsi bizə bu asılılığın böyük dərəcədə aradan qaldırılmasına imkan verəcək. Əlbəttə, bildiyiniz kimi, biz biznes mühitinin yaxşılaşdırılmasına mühüm önəm veririk. Fərəhləndirici haldır ki, Dünya Bankının “Doing Business” hesabatına görə, biz dünyanın 10 ən islahatçı dövləti sırasına daxil olmuşuq. Bununla bağlı nail olduğumuz sürətli inkişaf bizim bu sahəyə çox ciddi yanaşmamızın nəticəsində mümkün olub.

Bildiyiniz kimi, biz bu məqsədlə xüsusi komissiya yaratmışıq. Həmin komissiya çatışmazlıqları aradan qaldırmaq və vəziyyəti yaxşılaşdırmaq üçün hansı işlərin görülməli olduğunu ətraflı təhlil edib. “Doing Business” hesabatına görə, ümumən, 25-ci yerdə qərarlaşmaq iftixar hissi doğurur. Ancaq ən əhəmiyyətlisi odur ki, bu, biznes mühitinə və Azərbaycanın qeyri-enerji sahəsində inkişafına müsbət təsir göstərir”.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 11

2019-cu ilin yanvar-avqust aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 862,9 milyon manatlıq əməliyyat aparmışlar — səh. 15

Azexport.az portalına 2019-cu ilin yanvar-avqust aylarında 399,3 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 17

Cari ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 99,9 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir — səh. 21

Azərbaycanda Rəqəmsal Ticarət Qovşağı üçüncü beynəlxalq forumu keçiriləcəkdir — səh. 24

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-AVQUST AYLARINDA** qeyri-neft sektoru üzrə **1 milyard 277 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **184 milyon** ABŞ dolları və ya **17%** artmışdır

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu ilin yanvar-avqust ayları ərzində ölkəmizin ixracı **13,5 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **633 milyon** ABŞ dolları və ya 5 faiz artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə **1 milyard 277 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 8 ayında qeyri-neft sektoru üzrə ixrac **184 milyon** ABŞ dolları və ya **17 faiz** artmışdır. Cari ilin yanvar-avqust ayları ərzində Rusiyaya **427,1 milyon**, Türkiyəyə **278,6 milyon**, İsveçrəyə **111,5 milyon**, Gürcüstana **110,4 milyon** və İtaliyaya **33,5 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 8 ayında Rusiyaya qeyri-neft ixracı **14 faiz**, Türkiyəyə **12 faiz**, İsveçrəyə **21 faiz**, Gürcüstana **25 faiz** və İtaliyaya **2,4 dəfə** artmışdır. Eyni zamanda qeyri-neft sektoru üzrə ixracın dəyərində Rusiyaya (33,4 faiz), Türkiyəyə (21,8 faiz), İsveçrəyə (8,7 faiz), Gürcüstana (8,7 faiz) və İtaliyaya (2,6 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

2019-cu ilin yanvar-avqust ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (141,5 milyon ABŞ dolları) liderliyini qorumuşdur. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 107,7 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (85,1 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Həmçinin cari ilin 8 ayında qabığı təmizlənmiş meşə fındığı, elektrik enerjisi, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, metanol (metil spirti), ilkin formalı polipropilen, albalı və gilas da qeyri-neft ixracında mühüm paya sahib olmuşdur.

Ümumiyyətlə, 2019-cu ilin 8 ayı ərzində meyvə-tərəvəz ixracı **361,7 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **136,8 milyon**, pambıq lifi ixracı **86,2 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **81,3 milyon**, kimya sənayesi məhsullarının ixracı **68,5 milyon**, elektrik enerjisinin ixracı **58,4 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **41,4 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **18,9 milyon**, pambıq ipliyi ixracı **20,2 milyon**, şəkər ixracı **20,1 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-avqust aylarında alkoqollu və alkoqolsuz içkilərin ixracı **2 dəfə**, kimya sənayesi məhsullarının ixracı **68,7 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **51,3 faiz**, pambıq lifinin ixracı **49 faiz**, pambıq ipliyinin ixracı **40,3 faiz**, şəkər ixracı **15,5 faiz**, meyvə-tərəvəzin ixracı **14,5 faiz** artmışdır.

2019-cu ilin avqust ayında isə qeyri-neft sektoru üzrə ixrac **144,4 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin avqust ayı ilə müqayisədə 2019-cu ilin avqust ayında qeyri-neft sektoru üzrə ixrac 19 milyon ABŞ dolları və ya **15 faiz** artmışdır. Cari ilin avqust ayında qeyri neft-qaz məhsulları üzrə ən çox mal Rusiyaya (31,2 milyon ABŞ dolları), Türkiyəyə (27,4 milyon ABŞ dolları), İsveçrəyə (23,2 milyon ABŞ dolları), Gürcüstana (10,3 milyon ABŞ dolları) və Çinə (6,4 milyon ABŞ dolları) ixrac edilmişdir.

2019-cu ilin avqust ayında qeyri-neft sektoru üzrə ixracda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 22,7 milyon ABŞ dolları) birinci, emal olunmamış aşqarlanmamış alüminium (11,6 milyon ABŞ dolları) ikinci, metanol (9,6 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Bunlarla yanaşı, cari ilin avqust ayında polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr, ilkin formalı polipropilen, qabığı təmizlənmiş meşə fındığı, digər yer qazan və tunel qazan maşınlar, şaftalı (nektarinlər daxil olmaqla, təzə), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2019-cu ilin 8 ayında ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR-AVQUST AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI SENTYABR



# 2019-CU İLİN **AVQUST AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN **YANVAR-AVQUST AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**
**(Dəyəri milyon ABŞ dolları ilə)**






# 2019-CU İLİN **YANVAR-AVQUST AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Tomat (pomidor) | 141,5 | 144,4 |
| Qızıl | 107,7 | 81 |
| Mahlıc | 85,1 | 57,1 |
| Fındıq ləpəsi | 76,1 | 40,4 |
| Elektrik enerjisi | 58,4 | 59,6 |
| İlkin formalı polietilen | 50,8 | 63 |
| Metanol (metil spirti) | 48,1 | 15,8 |
| İlkin formalı polipropilen | 47,4 | 0,5 |
| Albalı və gilas | 42,2 | 38 |
| Digər | 620,1 | 593,9 |












# 2019-CU İLİN **AVQUST AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

İXRAC İCMALI 2019 SENTYABR

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Qızıl | 22,7 | 12,6 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 11,6 | 8,4 |
| Metanol (metil spirti) | 9,6 | 2,7 |
| İlkin formalı digər maddələr | 6,7 | 4,7 |
| İlkin formalı polipropilen | 5,6 | 0 |
| Qabığı təmizlənmiş meşə fındığı | 4,8 | 3,2 |
| Digər yer qazan və tunel qazan maşınlar | 4,7 | 0 |
| Şaftalı | 4 | 3,9 |
| İlkin formalı polietilen | 3,8 | 5,7 |
| Digər | 70,9 | 83,9 |












# 2018-Cİ İLİN VƏ 2019-CU İLİN **YANVAR-AVQUST AYLARINDA** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI SENTYABR

## 2018

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 17,2 |
| Fevral | Elektrik enerjisi | 17,7 |
| Mart | Elektrik enerjisi | 13,6 |
| Aprel | Pomidor | 18,5 |
| May | Pomidor | 54,3 |
| İyun | Pomidor | 43,2 |
| İyul | Pambıq mahlıcı | 16,4 |
| Avqust | Qızıl | 12,6 |

## 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Pomidor | 24,2 |
| May | Pomidor | 54,6 |
| İyun | Pomidor | 33,8 |
| İyul | Qızıl | 14,7 |
| Avqust | Qızıl | 22,7 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-AVQUST AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-avqust ayları ərzində həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-avqust ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “Socar Polymer” MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Nine Climate" MMC, "Global Export Fruits" MMC, "Baku Steel Company", “Sun Food” MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Caspian enerji-2020" MMC, "P-Aqro" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, “CTS-Agro” MMC, "Azərikimya" İB, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, “Azəripək” MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2019-CU İLİN **YANVAR-AVQUST AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-AVQUST AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI SENTYABR



# 2019-CU İLİN YANVAR-AVQUST AYLARINDA "AZƏRKOSMOS" ASC 28 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2019-cu ilin yanvar-avqust aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **23 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **89 faizini** təşkil etmişdir. 2019-cu ilin avqust ayında isə "Azərkosmos" ASC dünyanın **8 ölkəsinə 2,5 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2019-cu ilin yanvar-avqust aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**








## 2019-cu ilin **YANVAR-AVQUST AYLARINDA** Azərbaycana gələn xaricilər **BANK KARTLARI VASİTƏSİ İLƏ** **862,9 milyon** manatlıq əməliyyat aparmışlar

## **ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə **CARİ İLİN** birinci yarısında ölkəmizə **8,2 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir

2019-cu ilin yanvar-avqust aylarında Azərbaycana dünyanın 190 ölkəsindən 2138,7 min və ya 2018-ci ilin yanvar-avqust ayları ilə müqayisədə **8,2 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 30,6 faizi Rusiya Federasiyası, 22,1 faizi Gürcüstan, 9,5 faizi Türkiyə, 7,7 faizi İran, 4,0 faizi Səudiyyə Ərəbistanı, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,8 faiz olmaqla Ukrayna və Hindistan, 1,7 faizi İraq, hər birindən 1,5 faiz olmaqla Türkmənistan və Qazaxıstan, 1,4 faizi İsrail, 1,3 faizi Pakistan, 1,2 faizi Böyük Britaniya, 11,6 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə yanvar-avqust aylarında gələnlərin sayında daha çox artım Türkmənistan (80,4 faiz), Misir (76,7 faiz), Çin (68,5 faiz), Hindistan (68,0 faiz), Filippin (44,3 faiz), Macarıstan (40,7 faiz), Səudiyyə Ərəbistanı (38,6 faiz), Polşa (32,0 faiz), İspaniya (29,4 faiz), Böyük Britaniya (27,9 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

2019-cu ilin yanvar-avqust aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 25,3 faiz artaraq 96,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 7,5 faiz artaraq 788,8 min nəfər olmuşdur.

Cari ilin avqust ayında ölkəmizə gələn xarici vətəndaşların sayı **13,2 faiz** artmışdır və onların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların həcmi **137,4 milyon** manat təşkil etmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-avqust ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **862,9 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| Yanvar | **86,8** | **99,8** | **88,3** |
| Fevral | **72,5** | **91,1** | **85,3** |
| Mart | **91,1** | **105,8** | **98** |
| Aprel | **80,6** | **109,7** | **103,2** |
| May | **92,6** | **107,3** | **100,9** |
| İyun | **83,8** | **106,7** | **115,1** |
| İyul | **95,7** | **126,3** | **134,6** |
| Avqust | **100,8** | **141** | **137,4** |
| **Cəmi** | **703,9** | **887,7** | **862,8** |

3

# AZEXPORT.AZ PORTALINA 2019-CU İLİN YANVAR-AVQUST AYLARINDA 399,3 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

**ÖTƏN İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ** portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından **6,6 faiz ARTMIŞDIR**

2019-cu ilin yanvar-avqust aylarında Azexport.az portalına **399,3 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-avqust aylarında ixrac sifarişlərinin dəyəri **8,8 faiz** artmışdır. 2019-cu ilin avqust ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **52,7 milyon** ABŞ dolları təşkil etmiş və ötən ilin avqust ayı ilə müqayisədə **2,3 faizlik** artım qeydə alınmışdır. 2019-cu ilin yanvar-avqust aylarında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (11,4%), Türkiyə (5,8%), ABŞ (5,8%), Hindistan (5,5%) və İngiltərə (5,2%) qərarlaşmışdır.

Cari ilin avqust ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq məhsulları, tütün, şərab, toyuq əti, yumurta, soğan, meyvə şirəsi, qənnadı məhsulları, tikinti materialı, xiyar, çay, qurudulmuş meyvə, zəfəran, bal, meyvə tamlı süd, qablaşdırılmış mineral su, mühərrik yağı, mebel dəsti, gül və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 31 avqust tarixinə kimi (32 ay ərzində) Azexport.az portalına dünyanın 133 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 milyard 388,4 milyon ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**




Yanvar - **91,7 milyon**
Fevral - **53,9 milyon**
Mart - **32,8 milyon**
Aprel - **50,9 milyon**
May - **32,5 milyon**
İyun - **41,3 milyon**
İyul - **43,5 milyon**
Avqust - **52,7 milyon**

2017-ci il ərzində
**CƏMİ - 475 milyon**

2018-ci il üzrə
**CƏMİ - 514,1 milyon**

2019-cu il
**CƏMİ - 399,3 milyon**



Son **32 ay** ərzindəki sifarişlərin cəmi - **1 388,4 milyon**

# 2019-CU İLİN **AVQUST AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2019 İXRAC İCMALI SENTYABR

Pambıq və pambıq məhsulları



Tütün



Şərab



Toyuq əti



Toyuq yumurtası



Soğan



Meyvə şirəsi



Qənnadı məhsulu



Tikinti materialı




Xiyar



Çay



Qurudulmuş meyvə



Zəfəran



Bal



Meyvə tamlı süd



# 2019-CU İLİN **YANVAR-AVQUST AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



5

# CARİ İLDƏ "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 99,9 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

2019-cu ilin sentyabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatların verilməsi prosesi davam etmişdir. Qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin xidmətlərindən Teymur Əhmədov adına "AZNAR" QSC, "AzerGold" QSC, "Baku Steel Company" MMC, "Sadoil" MMC, " "Atena Aqro" MMC, "Agro Export Azerbaijan" MMC, "Azərtütün" MMC, "Gilan Tekstil Park" MMC, " One Style" MMC kimi şirkətlərlə yanaşı, fiziki şəxslər də istifadə etmişdirlər. Nəticədə cari ilin avqust ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən 8,2 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-sentyabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən **99,9 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir.

Cari ilin sentyabr ayı ərzində ixracatçılara əsasən tütün, biyan kökü, qiymətli metal külçələr, polad armatur yayması, polad məftil, polad boru, qara metallardan birləşdirici qurğu, qoyun bağırsağı, yonca, zəli, ayaqqabı altlıqları, nar, nar şirələri, pendir, müxtəlif çeşidli marmelad, kolbasa, pambıq tullantısı, meyvə şirələri, xurma, qənnadı məmulatları və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, Türkiyə, İsrail, Səudiyyə Ərəbistanı, İran, Bolqarıstan, İraq, Kanada, İsveçrə daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri 150 milyon ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN YANVAR - SENTYABR AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI SENTYABR






# 2019-CU İLİN **SENTYABR AYINDA “BİR PƏNCƏRƏ”** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

2019 İXRAC İCMALI SENTYABR

RUSİYA **31,0%**

GÜRCÜSTAN **29,0%**

TÜRKİYƏ **10,0%**

İRAN **5,0%**

UKRAYNA **3,0%**




SƏUDİYYƏ ƏRƏBİSTANI **3,0%**

BELARUS **3,0%**

İSVEÇRƏ **1,0%**

ÇİN **1,0%**

DİGƏR **14,0%**

6

# AZƏRBAYCANDA RƏQƏMSAL TİCARƏT QOVŞAĞI ÜÇÜNCÜ BEYNƏLXALQ FORUMU KEÇİRİLƏCƏKDİR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə 2019-cu il 9 oktyabr tarixində "Rəqəmsal Ticarət Forumu: İpək Yolunun Rəqəmsallaşması" mövzusunda üçüncü beynəlxalq konfrans keçiriləcəkdir. Tədbirdə əsasən İpək yolu boyunca rəqəmsal layihələr, maliyyə və bank texnologiyaları, eləcə də e-hökumət həlləri müzakirə mövzusu olacaqdır. Tədbirlə bağlı xüsusi məqamlardan biri də dünyada ilk e-Rezidentlik proqramının qurucusu və keçmiş icraçı direktoru Kaspar Koryusun iştirakıdır. K.Koryus konfransda Estoniya təcrübəsi, inkişaf xətti və gələcək planları barədə iştirakçılara ətraflı məlumat verəcəkdir. Forumda həmçinin ilk dəfə olaraq Dövlət-Özəl tərəfdaşlığı sazişinin mobil imza ilə imzalanması planlaşdırılır.

Qeyd edək ki, AzərTelecom, Best Solutions, Caspian Audit şirkətlərinin dəstəyi və Paşa Bankın sponsorluğu ilə həyata keçiriləcək Azərbaycanda Rəqəmsal Ticarət Qovşağına aid üçüncü beynəlxalq konfransda ABŞ, İsrail, Rusiya, Böyük Britaniya, Estoniya, Türkiyə, İspaniya və digər ölkələrdən 200-ə yaxın nümayəndə iştirak edəcəkdir.

Məlumat üçün bildirək ki, Azərbaycan dünyada Estoniyadan sonra elektron rezidentlik verən ikinci, mobil rezidentlik verən ilk dövlətdir. Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı dünyada yerli sahibkarlar üçün müxtəlif rəqəmsal həllər, qeyri-rezidentlər üçün elektron xidmətlər və müxtəlif ölkələr ilə trans-sərhəd əməliyyatları təqdim edən yeganə platformadır.



# AZƏRBAYCAN MƏHSULLARI **"WORLDFOOD MOSCOW 2019"** SƏRGİSİNDƏ NÜMAYİŞ OLUNMUŞDUR

"Made in Azerbaijan" brendinin təşviqi, yerli məhsulların ixrac coğrafiyasının genişləndirilməsi, istehsalın stimullaşdırılması məqsədi ilə Azərbaycan məhsulları 24-27 sentyabr tarixlərində Rusiya Federasiyasının Moskva şəhərində təşkil olunan "Worldfood Moscow 2019" beynəlxalq ərzaq sərgisində nümayiş olunmuşdur.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə 33 Azərbaycan şirkəti öz məhsullarını bu sərgidə "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdirmişdir. Ümumi sahəsi 415 kvadrat metr olan "Made in Azerbaijan" vahid ölkə stendində qida sənayesi, həmçinin şərab və digər spirtli içki məhsulları sərgi ziyarətçilərinə təqdim olunmuşdur.

Sərgi çərçivəsində Azərbaycan sahibkarları xarici ölkələrdən olan həmkarları ilə görüşlər keçirmiş, məhsul ixracına dair müzakirələr aparmışdırlar.

Qeyd edək ki, Azərbaycan artıq 3-cü ildir ki, "Worldfood Moscow" sərgisində tərəfdaş ölkə kimi çıxış edir.






# AZƏRBAYCANA **İLK ALICI MİSSİYASI** TƏŞKİL OLUNACAQDIR

"Caspian Event Organisers" (CEO) şirkətinin təşəbbüsü və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) dəstəyi ilə 2019-cu il 22-25 oktyabr tarixində Bakı şəhərində keçiriləcək 25-ci Yubiley Azərbaycan Beynəlxalq İnşaat sərgisi çərçivəsində alıcı missiyası təşkil olunacaqdır.

Azərbaycan ərazisinə ilk dəfə həyata keçiriləcək alıcı missiyası sərgidə nümayiş olunan məhsullara maraq göstərən Gürcüstan, İran, Rusiya, Özbəkistan və digər ölkələrdən olan potensial müştərilər üçün maksimum səmərəli və rahat iş şəraitinin yaradılması məqsədi daşıyır.

Qeyd edək ki, Azərbaycan ərazisinə alıcı missiyalarının təşkili "Made in Azerbaijan" brendi ilə istehsal olunan məhsulların ixracının genişləndirilməsinə xidmət edir. Azərbaycan məhsullarının tanıdılması məqsədi ilə reallaşdırılan bu dəstək tədbiri həm də yerli və xarici iş adamları arasında işgüzar dialoqun qurulması istiqamətində mühüm rol oynayacaqdır.



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

